At the same time, the article explores the undeniable and irreplaceable contribution of the Great Leader Heydar Aliyev, the flagship of the modern history and politics of Azerbaijan, to the development of Azerbaijani-Turkish cultural ties.

In general, the article explores Azerbaijani-Turkish relations during the leadership of the National Leader Heydar Aliyev of the Nakhchivan Autonomous Republic (1991-1993).

***Rəyçi:dos.A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 16 sentyabr 2021-ci il tarixli iclasının 01 saylı protokolu***
***Daxil olma tarixi 17 sentyabr 2021-ci il***

**UOT:94.**

# TÜRK-İRAN DOSTLUQ CƏMİYYƏTİNİN YARADILMASI, MƏQSƏDİ VƏ QURULUŞU

***Quliyeva Günay Şöhrəddin qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
gunkakuliyeva@yahoo.com

**Xülasə:** *İki ölkə arasında bir dostluq cəmiyyətinin yaradılmasına olan ehtiyacı 1946-cı il seçkilərində Milli Kalkınma (Dirçəliş) Partiyasından millət vəkili namizədi olan və cəmiyyətin quruluşunda da yer almış İsmail Sıtkı Oğuzbeyoğlu açıqlamışdı. İranla belə bir cəmiyyətin yaradılmasının çatışmazlığını ifadə edən Oğuzbəyoğlu və dostları İran səfiri İbrahim Zənd aralarında Fuad Köprülü və professor Dr.Sani Yavərin də olduğu bir qrupla yemək ziyafəti tərtib etmiş və bu yemək ziyafətində cəmiyyətin qurulması ilə bağlı qərar verilmişdir.*

**Açar sözlər:** Türkiyə-İran-Dostluq Cəmiyyəti-məqsəd-quruluşu
**Ключевые слова:** Турция-Иран-Общество Дружбы-цель-структура
**Keywords:** Turkey-Iran-Society of Friendship-goal-structure

Soyuq Müharibə dövründə Hind coğrafiyasından Orta Şərq coğrafiyasına qədər ölkələrdə baş verən hərbi çevrilişlər, hökümət dəyişiklikləri və siyasətlərdəki təhdid üzərində formalaşan ittifaqlar yeni proseslərin də yaranmasına təkan vermişdir. 1947-ci ildə Muhammed Cinnahın səyləri ilə qurulan Pakistanla quruluş mərhələsinin ardından oxşar modernləşmə mərhələsi izləmiş və özünü oxşar təhdid altında hesab edən Türkiyə arasında mədəni, təhsil, və sosial siyasətlər daxilində fəaliyyət göstərmək məqsədilə bir cəmiyyətin qurulması qərarlaşdırılmış və Türkiyə Pakistan Dostluq cəmiyyəti yaradılmışdı. Bu dövr ərzində formalaşan yeni qüvvələr balansı baxımından Türkiyə Ərəb dostluq cəmiyyətinin də fəaliyyətinin davam etdirildiyi müşahidə edilir. (1, 475).

Ölkələr arasındakı ikitərəfli münasibətlər baxımından cəmiyyətlər əsasən parlamentarilər, Xarici İşlər bürokratları və onların həyat yoldaşları, ölkələrin dilləri və mədəniyyətləri üzərində tədqiqat aparan alimlər və tacirlər tərəfindən yaradılmışdı. Bu cəmiyyətlər fəaliyyət sahəsi olaraq tələbə mübadiləsi, mədəniyyətlə bağlı sərgilər və konfranslar təşkil etmək kimi fəaliyyətləri seçmişlər. Bu cəmiyyətlər ölkələrinin hökümətləri arasında ikitərəfli əlaqələri inkişaf etdirə biləcək anlaşmaların baş tutması və problemlərin diplomatiya yolu ilə həll olunması məqsədilə vasitəçi simasını da daşımışlar. Cəmiyyətlər ölkələr arasında dostluq, əməkdaşlıq anlaşmalarının yaranma mərhələsinin əsasını qoymuşlar. Türk İran Dostluq Cəmiyyəti də İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan Soyuq Müharibə tarazlıqları ilə bağlı Türkiyə və İranın müştərək təhdid altında qalma narahatlığı üzərində formalaşmışdı. Demokratik Partiyanın iqtidarda olduğu dövrdə Türkiyənin ABŞ-la olan hərbi, iqtisadi və siyasi əlaqələrinin inkişaf etməsi ilə İranda Müsəddiqdən sonra Şahın ABŞ-a meylli bir siyasəti dəstəkləyən hökümət qurması, ABŞ-la Truman doktrinası ilə bağlı yardım alan Türkiyə kimi ölkələri bir-birinə yaxınlaşdırmışdı. (1, 475).

Cəmiyyətlərin böyük miqyasda sənət və təhsil sahələrində intensiv fəaliyyət göstərdiyi İkinci Dünya Müharibəsi illərində başlanan Yüksək Təhsil tələbə mübadiləsi və hərbi sahədə tələbə mübadiləsi fəaliyyətləri sonrakı illərdə də davam etdirilmişdi. Digər fəaliyyətlər də hər iki ölkənin mədəniyyətlərini tanıtmaq məqsədilə təşkil olunan sərgilər və dil kursları şəklində davam etdirilmişdi. Türk-İran əlaqələrinin inkişaf etdirilməsi üçün yaradılan cəmiyyətlərin fəaliyyətləri təhsil və mədəniyyətlə bağlı olduğu kimi hər iki ölkə arasında ticarətlə məşğul olan tacirlərin də ticarət zamanı qarşıya çıxan problemlərini həll etmək, çatışmazlıqları aradan qaldırmaq üçün də cəmiyyətlər yaradılmışdır. Sərhədlərində ən vacib məsələlərdən birinin təhlükəsizlik olan Türkiyə və İran arasında tacirlərin problemləri ilə maraqlanmaq üçün Ankara mərkəzli Türk-İran Tüccar Cəmiyyətinin də yaradılması gündəmə gəlmişdi. (1, 475).

İki ölkə arasında bir dostluq cəmiyyətinin yaradılmasına olan ehtiyacı 1946-cı il seçkilərində Milli Kalkınma (Dirçəliş) Partiyasından millət vəkili namizədi olan və cəmiyyətin quruluşunda da yer almış İsmail Sıtkı Oğuzbeyoğlu açıqlamışdı. İranla belə bir cəmiyyətin yaradılmasının çatışmazlığını ifadə edən Oğuzbəyoğlu və dostları İran səfiri İbrahim Zənd aralarında Fuad Köprülü və professor Dr.Sani Yavərin də olduğu bir qrupla yemək ziyafəti tərtib etmiş və bu yemək ziyafətində cəmiyyətin qurulması ilə bağlı qərar verilmişdir. Bir müddət sonra İstanbulda Böyük Millət Məclisinin sədri Refik Koraltanın sədrliyi ilə bir toplantı keçirilmiş və cəmiyyətin nizamnaməsi tərtib edilmişdi. (1, 475).

Türk-İran dostluğunun əhəmiyyətini haqlı olaraq təqdir edən İbrahim Zend Türk İran dostluq cəmiyyətinin qurulmasının zamanı gəldiyini qəbul etdiyi üçün bu fikirdə olan bəzi dostları ilə təmas quraraq fəaliyyətə keçmiş, bu xeyirli işə təşəbbüs etmişlər. Ankara Bürosu vəkillərindən olan Ali Vasfi Atahan bu məsələni belə bildirmişdir: “1952-ci ilin oktyabr ayında Ankarada idim. Ali Vasfi Atahan məni İran səfirliyinə apararaq İbrahim Zendlə tanış etdi. Fəaliyyətə keçməyə qərar verdik. Özünə bir siyahı verəcək. Bu siyahıya uyğun olaraq 11 dekabr 1952-ci ildə səfirlikdə bir ziyafət qurulacaqdı. Bu şəkildə ayrıldıq. (2, 36).

Bu qərarı İstanbul millət vəkili möhtərəm professor dr. Sani Yavərə bildirdik. Sani Yavər İran Türk dostluğunun reallaşmasının özü üçün əzəli bir arzu olduğunu və yarım əsrdən bəri bunu düşündüyünü bildirməklə gözləri yaşararaq bizi təbrik etdi. Biz siyahı tərtib edərək İran səfirliyinə göndərdik.

11 dekabr 1952-ci ildə səfir siyahıda yazılan bütün şəxsləri dəvət etmişdi. Bu şəxslər aşağıdakılar idi:

a)hariciye vekili Fuat Köprülü
b)İstanbul millət vəkili Sani Yaver
c)Erzurum millət vəkili Enver Karan
d)İstanbul millət vəkili Salih Keçeci
e)Ağrı millət vəkili Noyabr Küfrevi
f)Vəkil İ.Sıtkı Oğuzbeyoğlu
g)Vəkil Ali vasfi Atahan
h)İstanbul millət vəkili Celal Türkgeldi
i)Çorum millət vəkili Dr.Saip
j)Kayseri millət vəkili General İsmail Berkuk (2, 36-37).

Olduqca səmimi bir şəraitdə keçən bu ziyafətin sonunda cəmiyyətin qurulması qərarı alındı. Bu toplantıda Prof. Sani Yaver söz alaraq: “Möhtərəm dostlar!Əsas təməli mərhum Atamızla Rza Pəhləvi həzrətləri tərəfindən atılan Türk-İran dostluğu şəcərəsi, budur bəhrəsini verməyə başlamışdır. Bu gün 11 dekabr 1952-ci il tarixi bir axşamdır. Türk-İran dostluğunun dönüş nöqtəsidir. Orta Asiyanın ən qədim və ən əsilli iki milləti olan İran və Türk millətləri bundan sonra səylərimizlə bu iki əziz millət bir-birini daha yaxşı tanıyacaq, iqtisadi və mədəni sahələrdə yan-yana gedəcəkləri kimi, ümid edirəm ki, siyasət yolunda da çiyin-çiyinə irəliləyəcəklər. Içimdə elə bir inam var ki, artıq bu iki millət arasında heç bir anlaşmazlıq olmayacaq, köhnə səhvlər təkrar olunmayacaq.Uzun illərdən bəri xəyalımda yaşatdığım bu

gözəl hadisənin reallaşmasına səbəb olan səfir İbrahim Zendə təşəkkürlərimi bildirməklə xoşbəxtlik hissi duyuram. Yaşasın Türk-İran dostluğu!" (2, 37).

İbrahim Zend ayağa qalxaraq: o qədər həyəcanlanıram ki, sizlərə necə cavab verəcəyimi, mən də necə təşəkkür edəcəyimi bilmirəm. Sizləri qucaqlamaq istəyirəm. Ən son cavabım gözümdən axan sevinc gözyaşlarımdı" cavabını vermişdilər. (2, 37).

Beləliklə, Ankarada başlanan bu toplantı bir müddət sonra İstanbulda keçirilmiş, fəxri sədrlər Böyük Millət Məclisinin sədri möhtərəm Refik Koraltanla İbrahim Zend seçilmişlər, bundan sonra da nizamnamə tərtib edilərək hökümətə təqdim edilmişdir. Bu toplantıda iştirak edən təsisçilər əlifba sırası ilə aşağıdakı kimidir:

1.Prof.Abbas İkbal
2.Tacir Abdül Hüseyn Ahrabi
3.Doktor Ali Ekber Şerif
4.Erzurum millət vəkili Enver Karan
5.İstanbul millət vəkili Fuat Hulüsi Demirelli
6.Hariciye vekili prof. Fuat Köprülü
7.Manisa millət vəkili Hamdulla Subhi Tanrıöver
8.Prof. Hüseyn Tahirzade
9.İran səfiri İbrahim Zend
10.Vəkil İ.Sıtkı Oğuzbeyoğlu
11.Tacir İsmail Kasımzade
12.tacir İzzet Şefiizade
13.Baş konsul Mahmud Bahadır Bahaderi
14.Böyük Millət Məclisinin sədri Refik Koraltan
15.sabiq Ədliyyə vəkili Rüknettin Nasuhioğlu
16.Doktor Rza İspahan
17.Tacir Rza Leki
18.Yazıçı Refii Cevat Ulunay
19.tacir Rza Kehnemuni
20.İstanbul millət vəkili Sani Yaver
21.İstanbul millət vəkili Salih Fuat Keçeci
22.Sabri Antay
23.Tacir Yaşar Şinasi(2, 38).

Cəmiyyətin sədri Sani Yavər toplantıda çıxış dərək demişdir:"Millətlərin bugünkü həyat psixologiyası, keçmişdə olduğu kimi, yalnızlıq və böyüklükdə, təkəbbür və qürur, zülm və əsarətdə deyil, bu orta əsrlər dövrü təfəkküründə israrın mənası yoxdur. Çünki xam bir xəyal məhvə məhkumdur. Bəşəriyyətin ideal yolu evləri söndürərək qalaları zəbt etməkdə deyil. Yalnız və yalnız insanlığın kamilliyindən doğan, din və irq fərqi olmadan, qeydsiz və şərtsiz azadlığı qəbul etməklə qəlbləri fəth edən Birləşmiş Millətlərin təmiz sıraları arasında yer almaq şərəfinə nail olmaqdadır. Hörmətli dostlar, indiyə qədər hər millət öz varlığını qorumaq üçün ixtiyari olaraq məcbur olduğu qəhrəmanlıq və epik dastanlarını yaradaraq yüksək təsvirlərini ifadə etdirməsi keçmişin bir təfəkkürü və zehniyyəti idi. Bugünün, sabahın təfəkkürü və düşüncəsi də təhkimçilik, əsarət və istilaçı təfəkkürə qarşı, azadlığa aşiq və kamil millətlərlə eyni taleyi yaradaraq lazım gəldiyi halda eyni xariqə və dastanları yaratmaq təsvirini əməldə isbat edir, yəni dünənin batil rejimini yıxıb, yeni insanlıq rejimini qurur.Bu, şübhəsiz, bir həqiqətdir ki, insanlıq sevgi və əlaqədən məhrum və laqeyd və biganə bir millət yüksəlməsini, irəliləməsini bilməyən qanadsız, ayaqsız bir məxluqa bənzəyir. Sevgili dostlarım, böyük Atatürkün millətinə miras qoyduğu bir vəsiyyətnaməsi vardır. "Yurdda barış, cahanda barış". İnsanlığın böyük qayəsi bu dörd söz içərisində əhatə olunur. Böyük mürşüdün həyatlarında bizlərə bu gün və sabah üçün işarə etdikləri hadisələrdən birisini qeyd etmək istəyirəm: bu hadisə İran şahənşahı mərhum Rza Pəhləvinin məmləkətimizi ziyarətidir.

İki qardaş millətin xilaskarları arasında nəzərdən qaçmayan sevgi və könül birliyi təzahürat və gözəllikləri...millətlərimiz üçün izlənilməsi zəruri olan rifah və yüksəliş yoludur.
Ilk addım olaraq 1953-cü il aralıq (dekabr) ayının 11-ci Salı günü axşam saat ona beş dəqiqə işləmiş tarixi dönüm yolumuzun başlanğıcını təşkil edir. Xarici İşlər Naziri prof. Fuat Köprülü ilə İran dövlətinin keçmiş Ankara Roma səfiri İbrahim Zend qardaşımla millət vəkili və təsisçi dostlarımdan təşkil olunan bir qrupun iştirakı ilə Ankara-İran səfirliyində Türk-İran dostluq parlamantar nüvəsini təsis etmək xoşbəxtliyini idrak etdik.
Bu tarixin bu gün üçün bəlkə bir dəyəri olmaya bilər. Hökmü gələcək nəsillərin fikir və qiymətləndirməsinə buraxmaq doğru hərəkət olar. Siyasi kimliyi daşıyan ilk addımın təkamülə doğru irəliləməsi üçün fikrimcə, millətlərimiz arasındakı siyasi əlaqədən əlavə sevgi və qardaşlığı, mədəniyyət və iqtisadiyyat yolu ilə təsis etməkdir. Dostluq təşəkkülünün iki millət və məmləkət üçün xeyirli üfüqlərlə bəzədilməsinin sirri, qarşılıqlı sevgi və sabitlikdir. Əzmli qərarımız haqlı olaraq millətlərimiz tərəfindən qəbul ediləcəyinə zərrə qədər şübhəmiz yoxdur. Möhtərəm qardaşlar, Bu gün yolumuzun ikinci addımına nail oluruq, 14 fevral 1954-cü ilin pazarı gəldi. İran dövlətinin yeni bir səfiri Ali Mansur qardaşımla və iki qardaş millətə mənsub bir qrupla qəlb və fikir birliyi ilə ziyarətçi və dəyərli dəvətlilərimizin iştirakı ilə qeyd etmək şərəfinə nail oluruq. (2, 41-43).
Cəmiyyətin yaranma məqsədi nizamnamənin ikinci maddəsində aşağıdakı şəkildə izah edilmişdir:
a)tarixləri şan və şərəflə dolu həmsərhəd olan Türk və qardaş böyük İran milləti arasında dostluq və qardaşlıq bağlarını qüvvətləndirmək;
b)qarşılıqlı mədəni münasibətlərin qurulması ilə bunları inkişaf etdirmək;
c)tələbə mübadiləsi edərək elmi və ədəbi əsərlərdən qarşılıqlı şəkildə faydalanmaq;
d)Türk və İran məmləkətlərini ziyarətlə bağlı gəzintilər təşkil etməklə bu sahədə asanlaşdırmanın təmininə çalışmaq;
f)ticari və iqtisadi sahələrdə geniş miqyasda iş görmə imkanlarını araşdırmaq;
g)bu iki qardaş millət arasında qardaşlığa həsr olunmuş broşüralar və konfranslar təşkil edərək bir-birinə daha çox yaxınlaşmalarını təmin etmək kimi məqamlardan ibarətdir. (3, 3).
Cəmiyyət ümumi və İdarə heyətindən təşkil olunurdu. Cəmiyyətin ümumi heyəti dəftərdə qeyd edilən əsas üzvlərdən təşkil olunur. Hər ilin avqust ayında ümumi heyətin toplantısı keçirilir. (10-cu maddə) Toplantının yeri və zamanı on gün əvvəl iki qəzetlə elan olunduğu kimi, yerli icra orqanına da bildirilirdi. (3, 5).
Cəmiyyətin ümumi heyətinin vəzifə və səlahiyyətlərinə aşağıdakılar aiddir:
Konqres qəzetdə yazılı məsələlərlə konqres üzvlərinin təklif edəcəyi məsələlərə qərar vermək. Cəmiyyətin birinci katibi ilə ümumi katibini və idarə heyəti üzvlərini gizli səsvermə ilə seçmək. Keçən mərhələyə aid hesabatı təsdiq və ya rədd etmək. Sabiq idarə heyətinə bəraət vermək və ya onu məsuliyyətli görmək. İdarə qurulduqda cəmiyyətdən çıxarılanların etirazlarını araşdırmaqla qəbul və ya rədd etmək. Lazım olduqda nizamnaməni dəyişmək və ya cəmiyyəti ləğv etmək kimi məsələlər. (12-ci maddə) (3, 6).
Konqresdə yalnız əsas üzvlər iştirak edir, fəxri üzvlər səs vermirlər. (maddə 13). (3, 6).
Cəmiyyətin idarə həyəti sədr, sədr müavini, ümumi katib, xəzinədar və yeddi üzv olmaqla 11 nəfərdən ibarətdir. (maddə 18) İdarə heyətinin müddəti iki ildir. Təkrarən seçilə bilər. (maddə 22).
Cəmiyyətin idarə heyətinin vəzifələri aşağıdakılardır:
a)cəmiyyətin irəliləməsi uğrunda çalışmaq; b)cəmiyyətə daxil olmaq istəyənləri qəbul və ya rədd etmək; c)cəmiyyətin gəlir və xərclərini tənzim və idarə etmək; d)nizamnaməyə zidd hərəkət edən şəxsləri uzaqlaşdırmaq; e)qanun çərçivəsində dəftərləri tənzimləməklə gəlirləri toplamaq və xərcləri ödəməklə cəmiyyətin maddi və mənəvi inkişafı uğrunda çalışmaq; f)konfranslar, toplantılar və müsamirələr təşkil etmək, broşüralar, məqalələr nəşr edərək

qardaş millətlərə gəzintilər edərək kitabxanaların təsis edilməsi...kimi cəmiyyətin öz məqsədinə çatması üçün çalışmaq. (Maddə 23) (3, 7).
Cəmiyyəti sədr təmsil edir və ya onun yoxluğunda ümumi katib bu hüquqa malikdir, birinci sədrlə ümumi katibin üzrlü səbəbləri olduqda sədr müzvini təmsil edir. Şöbələrdə isə sədr olmadıqda, katib, o da olmadıqda xəzinədar təmsil edir. (maddə 24)
İdarə heyəti ən azı ayda bir dəfə olmaqla toplantı keçirmək məcburiyyətindədir. Birinci sədr və ya ümumi katib lazım bildikləri halda idarə heyətini hər zaman toplantıya dəvət edə bilərlər. Şöbələrdə də sədrlə katib eyni hüquqa malikdir. (Maddə 25)
Cəmiyyətə üzv olma və cəmiyyətdən çıxmaq şərtləri aşağıdakı maddələrdə öz əksini tapmışdır:
Üçüncü maddə - cəmiyyətin əsas və fəxri olmaqla iki növ üzvü vardır. 18 yaşını bitirən mülki hüquqa sahib və bu iki millətə mənsub hər kəs bu cəmiyyətə üzv ola bilər. Din və məzhəb fərqi qətiyyən nəzərə alınmır.
Dördüncü maddədə cəmiyyətə əsas üzv ola bilmək, cəmiyyət mənsublarından iki şəxsin təqdimatı üzrə idarə heyətinin qərarına bağlıdır.
Altıncı maddə - bu iki millətə mənsub olmadığı təqdirdə onları sevən, maddi və mənəvi yardımları olan şəxslər də idarə heyətinin qərarı ilə fəxri üzv ola bilərlər.
Səkkizinci maddə - cəmiyyətin qayəsinə zidd hərəkət etdikləri sübut olunan şəxslər idarə heyətinin qərarı ilə cəmiyyətdən uzaqlaşdırıla bilərlər. (3, 4)

### *Ədəbiyyat*

1.İbrahim Erdal. 1950-1980 Dönemi Türk-İran ilişkileri bağlamında kurulan Dostluk Cemiyetleri. 471-480, Genel Türk Tarihi Araştırmaları Dergisi, cilt 2, sayı 4, 2020.
2.Türk-İran dostluğu. İstanbul, İstanbul Matbaacılık T.A.O., 1956, 91 s.
3.Türk-İran Dostluk Cemiyeti Nizamnamesi, 1953, İstanbul, Marifet Matbaası

## ВОЗНИКНОВЕНИЕ, ЦЕЛЬ И СТРУКТУРА ОБЩЕСТВА ТУРЕЦКО-ИРАНСКОЙ ДРУЖБЫ

***Гулиева Гюнай Шохраддин***

***Резюме***

Общество Турецко-Иранской Дружбы является одним из важнейших обществ возникших между Турцией и Ираном. Цед возникновения Общества: развитие социально-культурных отношений между этими странами, осуществление обмен студентами, организование конеференции и другие мероприятия в области науки и культуры, также и организование поездок обеим странам. В данной статье кроме возникновения и цели общества также дается описание структуры общества.

## THE FORMATION, GOAL AND STRUCTURE OF THE SOCIETY TURC-IRAN FRIENDSHIP

***Guliyeva Gunay SHohraddin***

***Summary***

The Society of Turc-Iran Friendship is one of the most important societies that have been formed between Turkey and Iran. The goal of the Society is the development of the social and cultural relationships between these countries, realization of the student exchange, the organization of the conferences on the scientific and cultural spheres, organization of trips. In this article beside of the formation and goal of the Society we also describe the structure of the Society.

***Rəyçi: dosent Elgün Aslanov***
***İctimai elmlər və multikulturalizm kafedrsının 01 iyul 2021-ci il tarixli iclasın 11 saylı protokolu***
***Daxil olma tarixi 13 sentyabr 2021-ci il***